BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2015

UOT 321 (091); 34 (091)

# XVII ƏSRDƏ – XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MÜLKİYYƏT HÜQUQU VƏ TİCARƏT MÜNASİBƏTLƏRİ

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***

*Səfəvilər dövlətinin hökmranlığının son dövrlərində Azərbaycanda baş verən proseslər mülkiyyət və ticarət munasibətlərinin inkişafında müəyyən geriləmələri gündəmə gətirmişdi. Bununla belə, ayrı-ayrı hökmdarların dövründə, eləcə də Rusiya və Osmanlı imperiyalarının hökmranlığı altında olan ərazilərdə, həmçinin Əfşarilər dövründə bu münasibətlərin tənzimi sahəsində bir sıra hüquqi sənədlər verilir və torpaq sahibliyi, vergilər və ticari məsələlərlə bağlı yeni qaydalar müəyyənləşdirilirdi. Məqalədə XVII əsrdə – XVIII əsrin birinci yarısında Azərbaycan ərazilərində mülkiyyət və ticarət münasibətlərinin hüquqi tənzimlənməsi ilə bağlı məsələlər araşdırılır, bu sahədə yeni hüquqi faktlar ortaya qoyulur və müvafiq ümumiləşdirilmələr aparılır.*

**Açar sözlər:** mülkiyyət hüququ, müqavilə, fərman, rüsum, torpaq sahibliyi, vergi dəftərləri, siikəxana, sənətkar təşkilatları, ticarət qaydaları

XVII əsrdə Azərbaycanda mərkəzləşdirilmiş dövlətin mövcudluğu onun sosial-iqtisadi, siyasi, mədəni, hüquqi münasibətlərinin inkişafına özünün müsbət təsirini göstərmişdir. Bununla belə, ölkədaxili və xarici amillər nəticəsində iqtisadi və siyasi baxımdan gah inkişaf, gah da tənəzzül dövrü keçirdiyindən mülkiyyət və ticarət münasibətlərində və bu münasibətlərin hüquqi nizamlanmasında da həmin proseslərin təzahürünü görmək mümkündür. Əsrin əvvəllərində həyata keçirilən islahatlar sənətkarlığın, ticarətin, bütövlükdə əmlak münasibətlərinin tərəqqisinə gətirib çıxarmışdı. Karvan yollarının təhlükəsizliyinin qorunması, ipək ticarətinin inkişafı, quru ticarəti ilə yanaşı, dəniz ticarətinin genişləndirilməsi bu tərəqqini şərtləndirən amillərdən idilər. Lakin XVII əsrin sonlarında Yaxın və Orta Şərq ölkələrini, o cümlədən Azərbaycanı bürüyən iqtisadi böhran ölkənin iqtisadi həyatına mənfi təsir göstərməyə bilməzdi. Xüsusilə Səfəvilər dövlətinin zəifləməsi, torpaq üzərində mülkiyyət hüququnda baş verən mənfi dəyişikliklər, karvan yollarının dəyişkənliyə məruz qalması,

ipəyin keyfiyyətinin aşağı düşməsi, vergi və mükəlləfiyyətlərin miqdarının artması, yollardakı təhlükə mülkiyyət münasibətlərinin, sənətkarlığın, ticarətin inkişafına mane olurdu.

Bu dövrdə də mülkiyyət hüquq münasibətlərinin subyektləri mükəlləf, yəni hüquq və fəaliyyət qabiliyyətinə malik şəxslər – müsəlman və qeyri-müsəlmanlar, şəxslər qrupu və yaxud da onların təmsilçiləridir. Ayrı-ayrı insan qruplarının subyektliyi kollektiv şəkildə deyil, fərdi olur, yəni fəaliyyətini bilavasitə göstərmiş şəxs fərdi subyekt qismində çıxış edirdi (8, 71-72). Məlumdur ki, bu dövrdə də müsəlman hüququ ictimai münasibətlərin hüquqi tənzimində dominantlıq təşkil edirdi və fiqhə görə mülkiyyətçi (malik) öz əmlakının tam hüquqlu sahibi hesab edilirdi. Mülkiyyət hüququnun obyekti ola biləcək maddi əmlak növləri heç nə ilə məhdudlaşmırdı. İslam dini ilə haram hesab edilməyən və istehlak dəyərinə malik olan bütün əmlak növləri və onların törəmələri mülkiyyət hüququnun obyekti ola bilərdi (9, 98).

XVII əsrdə mülkiyyət hüququ yeni normalarla zənginləşmişdi. Yeni normalar, əsas etibarilə, torpaq üzərində mülkiyyətin yeni formalarının meydana çıxması ilə səciyyələnirdi. XVII əsr - XVIII əsrin əvvəllərində Azərbaycanda torpaq sahibliyinin aşağıdakı formaları mövcud idi: dövlət torpaqları (ərazi-yi divani); şahın özünün və sülalə üzvlərinin bilavasitə şəxsi mülki olan torpaqlar (ərazi-yi xassə, ərazi-yi xasseyi şərifə); tiyul adlandırılan şərti torpaq sahibliyi – feodal lenləri; vəqf torpaqları; feodalların xüsusi mülkiyyətində olan torpaqlar (mülklər); kənd icmasının istifadə etdiyi, lakin xəzinənin və ya feodalların təsir dairəsində olan icma torpaqları. Ümumiyyətlə, Azərbaycanda bütün orta əsrlər boyu torpaq sahibliyi formaları dəyişilməz qalırdı. Dəyişikliklər isə yalnız onların kəmiyyət nisbətində və bəzi torpaq mülkiyyəti formalarının yeni çalarlar, xüsusiyyətlər kəsb etməsində ifadə olunurdu.

Dövrün mülkiyyət münasibətlərinin xarakterik cəhətlərindən biri də dövlət torpaq mülkiyyətinin xüsusi torpaq sahibliyinə münasibətdə üstünlük təşkil etməsində idi. Həmin dövrdə divan və xassə torpaqlarının, mülklərin və icma torpaqlarının hüquqi vəziyyətində əvvəlki dövrlərlə müqayisədə elə bir ciddi dəyişiklik müşahidə olunmurdu. Feodal lenlərinə gəldikdə isə Səfəvilər əvvəlki dövrdə təcrübədə daha çox rast gəlinən irsən keçə bilən soyurqal torpaqlarını məhdudlaşdırıb öz yaxın adamlarına və sərkərdələrə məzmunca ilkin iqtaya daha yaxın olan tiyul torpaqları paylayırdılar. Bununla belə, bəzi mənbələrdən də göründüyü kimi soyurqal sahibliyi uzun müddət ayrı-ayrı hallar zamanı verilməkdə davam edirdi və belə mülkiyyət hüququnun vaxtaşırı təsdiqlənməsinə təsadüf olunurdu. Belə ki, Osmanlı Türkiyəsində elçi qismində fəaliyyət göstərən Əbdülvahabın öldürülməsindən sonra Səfəvilər dövləti qarşısında xüsusi xidmətlərinə görə onun övladları qazı-ül-qüzzat və qoşun qazısı vəzifələrinə təyin olunmuş və onlara əvvəlki soyurqallardan əlavə olaraq, Azərbaycanda yaşayan qeyri-müsəlmanlardan ildə səranə (adambaşı) adı ilə alınan altı dinar vergi soyurqal kimi verilirdi. Əbdülvahabiyyə seyidləri

hətta XVIII əsrin əvvəllərində də sərənə vergisindən soyurqal şəklində müəyyən haqq alırdılar. Soyurqal əmlak şəklində ali təbəqədən olan ruhani xadimlərə də verilirdi (13, 171-172). Tiyul torpaqları da hüquqi baxımdan, həm də, soyurqalların bir qədər başqalaşmış formasını özündə ehtiva edirdi.

Tiyul sahibi olan tiyuldar dövlətə xidmət edir və ona bağışlanan torpağın verdiyi gəlirin müəyyən hissəsini özünə götürürdü. Tiyul şərti sahiblik hesab olunurdu və yalnız şahın icazəsi ilə müstəsna hallarda irsən keçə bilərdi. Ümumiyyətlə, tiyul iki formada verilirdi: vəzifə təyinatı ilə bağlı müəyyən müddətə və şahın fərmanı ilə ömürlük (8, 186). Müvəqqəti verilmiş tiyul tiyuldar vəzifədən çıxarıldıqda, başqa işə keçdikdə və ya öldükdə həmin şəxsdən geri alınaraq başqasına verilirdi. Digər tərəfdən şah istədiyi vaxt tiyuldan məhrum edilə bilərdi. Ona görə də, tiyul sahiblərinin tiyulu satmaq, bağışlamaq hüquqları yox idi, yeni şah hakimiyyətə gəldikdə isə onun fərmanı ilə tiyuldarın tiyul üzərindəki sahiblik hüququ yenidən təsdiq olunmalı idi. XVIII əsrin əvvəllərində Osmanlıların ələ keçirdikləri ərazilərdə hərbi lenlər – timar və zəmət torpaqları da paylanırdı ki, bunların sahibləri sipahi adlanırdı. Divani və xass torpaqları vahid miri torpaqları kateqoriyasına daxil edilmişdi. Osmanlı hakimiyyətinə loyal münasibət bəsləyən mülkədar və tiyuldarların mülkiyyət hüququna toxunulmurdu. İtaətsizlik göstərənlərin torpaqları isə müsadirə olunub Osmanlı döyüşçülərinə paylanır, yaxud satılırdı (1, 371).

Xassə torpaqlarının hüquqi vəziyyətində dəyişikliklər XVIII əsrin birinci yarısında – Əfşarilər dövründə xüsusilə nəzərə çarpırdı. Bu dövrdə həmin torpaqlar xassə-xalisə torpaqları adlandırılırdı. Həmin torpaqlardan əldə edilən məhsuldan heç bir vergi alınmadığı üçün dəftərlərdə onu xalisə adı ilə qeydə alırdılar. Bununla əlaqədar olaraq mənbələrdə həmin mülkiyyət forması müxtəlif adlarla – «xassə», «xalisə» və «xalisəcat-e xassə» kimi göstərilir. Ümumiyyətlə, hər iki termin (xassə və xalisə) eyni xarakterdə və eyni məzmunda olan torpaqlara, yəni hökmdar və onun ailə üzvlərinin torpaqlarına aid idi. Hökmdarlara məxsus xalisə torpaq mülkiyyəti forması qədim tarixə malikdir. Xalisə torpaqlarının miqdarı ayrı-ayrı şahların siyasətindən, ələlxüsus iqtisadi siyasətindən asılı olaraq dəyişirdi.

Nadir şahın hakimiyyəti dövründə xalisələrin həcmi əsasən vəqf və qismən mülk torpaqlarının müsadirə edilməsi hesabına hədsiz dərəcədə genişləndirildi. Bu dövrdə xalisə torpaqlarının aşağıdakı növləri mövcud idi: 1. Mərkəzi hökumətin tabeliyindən boyun qaçıran, vergiləri vaxtında ödəməyən və hərbi mükəlləfiyyətdən imtina edən şəxslərin əmlakının müsadirəsi hesabına əldə edilən xalisələr. Belə torpaqlar «xalise-yi məzbutə» (müsadirə edilmiş xalisə) adlandırılırdı; 2. Xalise-yi intiqali (köçürülmüş – başqasına verilmiş xalisələr) müəyyən hadisələrlə əlaqədar olaraq, xalisə torpaqları hesabına bir sıra şəxslərə tiyul, bəxşiş və s. kimi adlarla verilən torpaqlara deyilirdi. Həmin torpaqları köçürmə yolu ilə müvəqqəti olaraq alan şəxslər vəfat etdikdə və yaxud müəyyən edilmiş müddət başa çatdıqda onların nəsli artıq həmin torpaqları öz əllərində saxlamaq hüququna malik deyildilər; 3. Xalise-yi bəzri.

Bəzən torpaq sahibi baş vermiş qıtlıq və quraqlıq nəticəsində iflasa uğrayaraq öz torpağını becərmək imkanından məhrum olurdu. Nəticədə onun münbit və qismən geniş sahəsi uzun müddət əkilməmiş və başlı-başına qalırdı. Belə hallarda həmin yerlər xüsusi siyahıda qeyd olunmaqla dövlət vəsaiti hesabına əkilirdi. Xalisələr tərkibinə daxil edilən belə torpaqlar o qədər də sabit deyildi. Çünki əmlakını tələb etdiyi təqdirdə torpaq öz sahibinə qaytarılırdı; 4. Xalise-yi səbti (qeydə alınmış, səbt edilmiş xalisələr) adlı torpaqlar əvvəllərdə dövlətə, hökmdara aidiyyəti olmayan sahələr idi. Yalnız Nadir şahın hökmranlığı dövründə xalisələr sırasına daxil edilmişdi. Qaçan, öldürülən və başqa səbəblər üzündən yoxa çıxan şəxslərin sahibsiz qalan və başlı-başına buraxılan torpaqları dövlət məmurları tərəfindən aşkar edilərək xüsusi kitabçalarda qeydə alınırdı. Onlarla da xalisə torpaqları kimi rəftar edilirdi (6, 81-82).

Vəqflərin bu dövrdə iki növü fərqləndirilirdi: sünnəti və vacibi. Sünnəti vəqfləri hökmdarın himayəsində olmaqla onlardan əldə edilən gəlirlərin məsrəf olunması da şahın göstərişi ilə həyata keçirilirdi. Lakin əmlakı vəqfə vəsiyyət edənlər buradan daxil olan gəlirlərin adətən konkret olaraq hara xərclənməsini göstərmədiklərindən şah da belə göstərişləri verərkən hamı tərəfindən qəbul olunmuş normaları rəhbər tuturdu. Vəsiyyət edənlərin tələblərinə uyğun olaraq əldə edilən gəlirlərin konkret müəyyən olunmuş qaydalar əsasında məsrəf edildiyi vəqflər isə vacibi adlandırılırdı (9, 222-223). XVIII əsrin birinci yarısında vəqf torpaqlarının «vəqf-i xas» və «vəqf-i üm» növləri mövcud idi. Yerli mənbələrlə yanaşı, Avropa səyyahlarının əksəriyyəti (Oleari, Şarden, Streys və b.) Ərdəbil vəqflərinin böyük gəlirləri haqqında məlumat verirdilər. Vəqf mülkləri Azərbaycanın digər şəhərlərində də – Təbriz, Gəncə, Bakə, Marağa və s.-də mövcud idi (1, 274).

İslam qanunvericiliyinin hüquqi və dini normaları xüsusi mülkiyyəti müqəddəs və toxunulmaz elan edirdi. Məhz bu baxımdan Quranda belə mülkiyyətin oğurlanmasına görə olduqca sərt cəzalar nəzərdə tutulur. Səfəvilərin dövründə isə belə cinayətlərin törədilməsinə görə cismani cəzalarla (bir neçə dəfə təkrardan sonra hətta ölüm cəzası) yanaşı, əlavə cəzalar da verilirdi.

Öhdəliklərin icrası ilə əlaqədar məsələlərə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə qanunvericilikdə müxtəlif təminat üsulları müəyyən edilmişdi. Bunların içərisində ən geniş yayılanları girov qoyulması və beh verilməsi idi. Üçüncü şəxslərin zaminliyi də müəyyən rol oynayırdı. Müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı mülki hüquq münasibətləri, ələlxüsus mülki-hüquqi əqdlərin bağlanılması və icrası ilə bağlı məsələlər islam qanunları çərçivəsində nizama salınırdı. Bununla belə, ortaya çıxan xüsusi hallar dövlət orqanlarının müdaxiləsi ilə və səlahiyyətli şəxslərin verdiyi, xüsusi qaydaları nəzərdə tutan aktlarla tənzimlənirdi. İslam dinini qəbul etmiş qeyri-müsəlmanlara mülki-hüquqi münasibətlərdə müəyyən güzəştlər verilirdi. Belə ki, islamı qəbul etmiş hər hansı qeyri-müsəlman şəxs öz ailəsində miras əmlakın bölüşdürülməsi zamanı böyük üstünlüyə malik idi.

Əmtəə-pul münasibətlərinin inkişafı tədricən ticarətin genişlənməsinə səbəb olurdu. XVII əsrin sonlarından başlayaraq ticarət münasibətlərində tənəzzül müşahidə olunsa da, əvvəllərdə ticarətin inkişafı məqsədilə tikilmiş xeyli karvansaraların, müxtəlif malların satıldığı ixtisaslaşdırılmış bazarların mövcudluğu baxımından bu proses bir o qədər də ağır nəticələrə gətirib çıxarmırdı. Azərbaycanda həmin dövrdə müxtəlif pul, ölçü, çəki vahidləri mövcud idi. Səfəvilərin pul vahidləri olan abbası, mahmudi, şahı, bisti, qazbeki ilə yanaşı, dövriyyədə osmanlıların, rusların, ispanların və digərlərinin pul vahidlərinə də rast gəlinirdi. Gümüş sikkələr daha tez saxtakarlıq obyektinə çevrilirdi. Məhz buna görə də bazarlarda alıcılardan daha çox misdən olan sikkələr qəbul edilirdi. Ölçü vahidlərinə gəldikdə isə istər Səfəvilərin, istərsə də Nadir şahın dövründə şah arşını bütün şəhərlərdə rus arşınından altı qarış, bəzən də daha uzun idi.

Azərbaycanda əsas çəki vahidi batman və ya man hesab olunurdu. Hər şəhərin özünəməxsus arşını olduğu kimi, batmanı da var idi. Belə ki, şah batmanı 14 rus funtuna, Şamaxı batmanı 9,5 funta, Təbriz batmanı isə 7,5 rus funtuna bərabər idi. Batmandan sonra çox işlənən çəki vahidi stil və ya satıl (düyü, buğda, un satılarkən çəkilmədən satılvarı qablarla ölçüldüyündən belə bir çəki vahidinin ortaya çıxması ehtimal olunur) idi. 24 stil 9 funtluq batmana bərabər tutulurdu. Ən kiçik çəki vahidi isə misqal hesab olunurdu. Misqal təqribən beş qrama bərabər idi. 33 misqal bir stilə bərabər gəlirdi. Pul və ölçü vahidlərinin müxtəlifliyi eyni adlı malların müxtəlif qiymətə satılmasına gətirib çıxarırdı və bu da öz növbəsində ölkədə ticarətin, ümumilikdə iqtisadiyyatın inkişafına maneçilik törədirdi.

Xarici bazarda sənətkarların hazırladıqları mallara nisbətən, xammala (xüsusilə də xam ipəyə – X.İ.) daha çox ehtiyac duyulduğu üçün, ticarətdən daha çox qazanc əldə edilirdi (5, 31). Xırda alverçilər bir çox hallarda öz malikanələrindən ayrılmağa ehtiyat edən, xristian aləmi ilə yaxından tanış olmayan müsəlman feodalların ipək və s. xammallarını alıb, xarici bazara çıxarır və beləliklə də, tacir olurdular. Bununla belə, əksər azərbaycanlı tacirlərin özləri xaricə mal aparmağa başlamışdılar.

Alqı-satqı münasibətlərində qoyulan yeni qaydaya görə tacirlərdən heç birinin bəylərbəyinin icazəsi olmadan malını satmağa ixtiyarı yox idi. Şəhərə gətirilən mallar ilkin olaraq bəylərbəyinin adamları tərəfindən gözdən keçirilir, ən yaxşıları seçilir və çox ucuz qiymətləndirilirdi. Yalnız bəylərbəyi mal seçdikdən sonra tacirə öz mallarını satmağa icazə verilirdi. Bir çox hallarda mallar nisyə götürülürdü. Borc yarım il, bəzən bir ilə qədər uzadılırdı və o halda qaytarılırdı ki, tacir hər bir manata on qəpik güzəştə getmiş olsun. Bəzən isə istifadə edildikdən sonra malın özü qaytarılırdı və bununla tacirlərə böyük zərər vurulmuş olurdu. Bütün bunlar fiqhin müvafiq normaları ilə ziddiyyət təşkil edirdi. Məhz elə həmin məsələ dövlətlər arasında narazılığa və bu barədə uzun-uzadı danışıqlar aparmağa səbəb olurdu. Əcnəbi tacirlərlə yerli tacirlər arasındakı mübahisə və ya narazılıq halları dilmancların köməyi ilə çözülürdü. Buna

görə də, gəlmə tacirlərdən «dilmanc pulu» da alınırdı. Təkcə Şamaxıda rus tacirləri ildə təqribən min rubldan artıq dilmanc pulu verməli olurdular (1, 401).

Bu xüsusda xarici ticarət münasibətlərinin inkişafı yönümündə müəyyən hüquqi tədbirlər görülürdü. Belə ki, Səfəvilər dövlətinin xarici ölkələrlə, ilk növbədə isə qonşu dövlət olan Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsi üçün bütün mümkün imkanlardan istifalə olunurdu. Rusiya tərəfi Səfəvilər dövlətinin ərazisində tacir silkinə mənsub olan təbəələrinin mənafelərini müdafiə etmək məqsədilə müəyyən sənədlər qəbul edir və onların icrasının təmin edilməsini özünün elçilərinə həvalə edirdi. Belə ki, 1712-ci ildə Rusiyanın Səfəvilərə səfir təyin edərkən ona verdiyi Təlimat ticarət əlaqələrinin möhkəmləndirilməsini, bu xüsusda müqavilə bağlanılmasını, rus təbəələrinə gömrüksüz ticarət etmək hüququnun verilməsi üçün razılıq alınmasını nəzərdə tuturdu.

Şamaxı konsulxanasına ünvanlanmış Təlimatda konsulun səlahiyyətləri göstərilmiş, konsulun buradakı canişininin özünü tam hüquqlu konsul kimi aparması, hansı Qərbi Avropa ölkələrinin tacirlərinin orada ticarət etmələri, digər ölkələrin təbəələrinin Şamaxıya hansı malları gətirmələrinin aydınlaşdırılması, mallarını Rusiya bazarlarına aparan Azərbaycan tacirlərinin Rusiya bazarına şirnikləndirilməsi və onlara gömrük güzəştlərinin tətbiq olunacağını izah etməsi, həmin dövlətdə işlədilən pul, ölçü, çəki vahidləri haqqında məlumat toplayaraq ticarət kollegiyasına verməsi, digər rus elçiləri ilə müntəzəm əlaqə saxlaması, rus təbəələri ilə yerli tacirlər arasında baş verən mübahisələri ədalətlə həll etməsi, mübahisəli mühüm bir məsələni həll etməzdən əvvəl rus tacirlərinin orada olan başçılarını toplamalı və həmin məsələni mübahisə edənlərin iştirakı ilə müzakirələrdən sonra əksəriyyətin nəfinə həll etməsi, İsfahandakı konsul vəfat etdikdə onu əvəz etməsi, rus dövlətinin gəmilərinin boşaldılmasına və ya yüklənməsinə şəxsən nəzarət etməsi, bu mümkün olmadıqda isə mütləq öz əvəzinə həmin yerə etibarlı tacirlərdən iki və daha çox adamı göndərməsi, gəmilərin yüklənməsini və ya boşaldılmasını asanlaşdırmaq məqsədilə limanda yastı oturacaqlı qayıqların saxlanılmasını təmin etməsi və s. hüquq və vəzifələri qeyd edilmişdi. Təlimat 21 bənddən ibarət idi və burada dövlətin ümumi siyasətini əks etdirən digər müddəalar da geniş yer tuturdu (10, 18).

Sultan Hüseynin xarici ticarətlə bağlı məsələlərin, xüsusilə də Səfəvilərlə Rusiya dövləti arasında ticarət münasibətlərinin tənzimlənməsinə həsr edilmiş fərmanının məzmunu bu sahədə hüquqi münasibətlərə aydınlıq gətirilməsi baxımından xüsusi maraq doğurur. On bənddən ibarət olan fərmanın I, II və III bəndlərində yerli hakimlərin rus tacirlərini öz mallarını onların ərazisində satmağa məcbur etməmələri və onların öz istəyi ilə digər şəhərlərə getmək istəməsinə mane olmamaları, əksinə yardım göstərmələri, yol boyu həmin tacirlərin karvan yüklərinin və özlərinin təhlükəsizlizliyi üçün məsuliyyət daşımaları qeyd olunurdu. Fərmanın 4-cü bəndinə əsasən Şirvan bəylərbəyisi tərəfindən əcnəbi tacirlərə zor göstərilməməli, onların malları pulsuz alın-

mamalı, tacirlərin sıxışdırılması, təhqir və qarət olunması ilə bağlı məhkəməyə müraciət etmələri təmin olunmalı və bu zaman onlardan rüsum - dəhyek (pulun onda biri) alınmamalı və onlara kömək göstərilməli idi. 5-ci bənddə yerli tacirlərlə gəlmə tacirlər arasındakı münasibətlərə aydınlıq gətirilir və yerli tacirlərə gəlmələrdən aldıqları borc və nisyə malın dəyərinin qaytarılmasının vaxtının müəyyənləşdirilməsi, borcu vaxtında qaytara bilmədikdə, 1000 tümənə hər ay bir faiz əlavə verməli olduqları müəyyən edilirdi. Eyni zamanda nisyə alınmış malın xeyli vaxt saxlanıldıqdan sonra yiyəsinə qaytarıldığı halda da tacirə həmin malın dəyərinin müəyyən faizinin ödənilməsi nəzərdə tuturdu.

Fərmanın 6-cı bəndində ölkənin bir şəhərindən digər şəhərinə mallarını satmaq üçün getmək istəyən tacirlərə icazə verilməsi, bu zaman onlardan yol xərci və rahdari alınmasının qadağan olunması, yalnız mallarını satdıqları halda gömrük ödəmələri müəyyən edilirdi. Fərmanın 7-ci bəndi rus tacirlərinə Şirvan və Şamaxıdan xam ipək almaqda maneçilik törədilməməsini, 8-ci bəndi gəlmə tacirlərə böyük ziyan vuran yerli dilmancların fırıldaqlarına son qoyulmasını, 9-cu bəndi digər tacirlərlə müqayisədə rus tacirlərindən artıq gömrük alma hallarının aradan qaldırılmasını və nəhayət, 10-cu bəndi Şamaxıdan Nizabada gedən rus ticarət karvanlarının tacirlərin hesabına atlı dəstələrlə müşayiət olunmalarını, yolda oğurlanmış və ya itmiş malların tapılıb tacirə qaytarılmasını, dənizdə baş vermiş tufan zamanı Şirvan, Gilan və Mazandaran sahillərində kənara atılan rus mallarına əl vurulmamasını və yiyələrinə qaytarılmasını nəzərdə tuturdu. Həmin fərmanın surəti ticarət mərkəzləri olan bütün şəhərlərə göndərilmişdi (9, 270-271).

Karvansaralarda yaşayan və buna görə müvafiq haqq ödəyən gəlmə tacirlərə bir sıra imtiyazlar verilirdi. Belə tacirlərə yerli tacirlərdən birinin borcu olduğu halda, onu qaytarmaqdan imtina etsəydi, həmin tacir bu barədə yerli hakimlərə şikayətlə müraciət edə bilərdi. Burada şikayətçinin borcunun ümumi məbləğinin iki faizini dövlət hesabına keçirilməsi şərti ilə borcun alınması və qaytarılmasında ona yardım olunurdu. Digər tərəfdən şəhər bazarında münasib yer olmadığı təqdirdə, həmin tacirlərə yer pulu vermək şərti ilə elə karvansarada ticarət etmək hüququ verilirdi.

Ticarətin inkişafındakı tənəzzül ümumi böhranın nəticəsində baş vermişdi və bu hal, xüsusilə də rahdari rüsumunun geniş yayılması tacirlərin vəziyyətinə öz mənfi təsirini göstərməkdə idi. Rahdari gömrüyünün miqdarı müxtəlif idi və hər şeydən əvvəl, aparılan malın sayı, ağırlığı və hansı bazarda satılacağından asılı olurdu. Ayrı-ayrı şəhərlərdə müxtəlif gömrük məbləğlərinə rast gəlmək olurdu. Belə ki, Şamaxıda ipək və pambıq parçalarla yüklənmiş dəvə yükündən bir manat əlli qəpik, başqa çəkilməli mallarla yüklənmiş dəvə yükündən altmış qəpik, öküz yükündən isə otuz qəpik həcmində rahdari alınırdısa, Bakıda dəvə yükündən əlli iki qəpik, öküz yükündən isə iyirmi-otuz qəpik həcmində, Dərbənddə hər dəvə yükündən bir manat iki qəpik, at və öküz yükündən isə bir manat həcmində rahdari alınırdı.

Yalnız karvan yolları ilə deyil, dəniz vasitəsilə gətirilən mallardan da rahdari gömrüyü alınırdı. Lakin bu gömrüyün həcmi ilə karvan vasitəsi ilə gətirilən mallardan alınan gömrüyün həcmi arasında fərq mövcud idi. Bu fərq birincinin çoxluğu ilə ifadə olunurdu. Rahdari gömrüyü başqa vergilərlə yanaşı, şahın xəzinəsinə toplanılan ən gəlirli vergi maddələrindən biri idi. Əvvəllər rahdari gömrüyü yalnız yol və sərhəd keşikçilərinin xeyrinə olaraq yığılırdı. Sonralar bu vergi yalnız tacirlərdən deyil, səyyahlardan və ziyarətə gedənlərdən də alınmağa başlanıldı. Həmin gömrüyün həm miqdarı, həm də gömrükalma məntəqələrinin sayı artırılmışdı.

Tacirlər mallarını şəhərdən çıxardıqları üçün verdikləri rahdaridən əlavə, neçə şəhərdən keçsəydilər, həmin yerlərdə gömrük verməli olacaqdılar. Tacirin gətirdiyi malın hamısının qiymətinin min manata çatmadığı təqdirdə, hər bir malın üzərinə ayrılıqda gömrük rüsumu qoyulurdu. Ölkədə mövcud olan hərc-mərclik üzündən tacirlərin ticarət bəhanəsilə getdikləri qonşu ölkələrdən bir daha geri dönmək istəməmələri hakimiyyət dairələrini belə halların qarşısını almaq məqsədilə tədbirlər görməyə sövq etmişdi. Nadir şahın fərmanı ilə ticarət üçün səfərə çıxan tacirlərin yerli hakimlərə müraciət etmələri və yalnız onlardan vəsiqə – icazə aldıqdan sonra şəhərdən çıxmaq hüququ olduğu təsbit olunurdu (8, 205).

Xarici ölkə tacirləri Azərbaycanda və eləcə də, Azərbaycan tacirləri Rusiya və digər xarici ölkələrdən gətirdikləri malları asanlıqla istədikləri qiymətə sata bilmirdilər. Tacirlərin mallarından qeyri-qanuni şəkildə yüksək rüsum tələb edən yerli feodallar onlara müqavimət göstərən tacirlərin yüklərini zorla müvəqqəti olaraq saxlayırdılar. Belə rüsumu ödəyərək şəhər bazarına mallarını çatdıran tacirləri başqa tələblər də gözləyirdi.

Ticarət münasibətlərində ciddi qaydalar mövcud idi. Bazarda mallara qiymət qoymaq və onun üzərində nəzarət etmək möhtəsibin vəzifəsinə daxil idi. O, öz funksiyasını üç-dörd köməkçisinin vasitəsilə həyata keçirirdi. Hər həftənin birinci günü (müsəlman təqvimi baxımından şənbə günü) carçı vasitəsilə malların qiymətləri elan edilirdi. möhtəsib həftə ərzində bu və ya digər malın qiymətini azaldıb-artırmaq barədə öz köməkçiləri ilə məşvərət edirdi. Malı qoyulmuş qiymətdən baha satanlar ciddi şəkildə cəzalandırılırdı.

Məxəzlərdən belə bir fakt bəllidir ki, Təbrizdə bir çörəkçi möhtəsibin çörəyin qiymətini artırmağa qoymamasından və nəticədə onun bundan ziyan çəkməsindən şəhər hakiminə şikayət edir. Çörəkçinin şikayətini eşidən şəhər hakimi deyir ki, bu, möhtəsibin öz işidir və onun səlahiyyətinə daxildir (15, 614). Qəssab və ya çörəkçi öz malını qoyulmuş qiymətdən baha satdıqda darğalar onun qulaqlarının kəsdirə bilərdi (14, 219). Çəkidə və qiymətdə aldadanları darğa və ya möhtəsib cəzalandırırdı.

Daxili ticarət (topdansatış) pul və yaxud öhdəlik yolu ilə (nisyə) aparılırdı. Öhdəlik üzrə ticarət etibarlı və bir-birinə lazımi inamları olan tacirlər arasında aparılırdı. Bu kimi ticarət hüququ sənədlər əsasında aparılmalı idi. Topdansatış işində isə tacirlər arasında yayılan müqavilənamənin forması stan-

dart və biri digərinin eyni idi. Yeni-yeni müqavilələr bağlanarkən təkcə tacirlərin ticarət məhsullarının adları, verilməli mal, ödəniləsi pulun miqdarı və tarixi dəyişirdi. Bağlanan müqavilələr ətrafında anlaşılmazlıq və mübahisələr baş verdiyi təqdirdə, bu münaqişələr üç «adil» şahidin ifadəsi əsasında həll edilirdi. İ.N.Beryozinin yazdığına görə, şahidlərin tərkibində qadınlar da iştirak edə bilərdilər (4, 69). Lazımi müqavilələrin bağlanmasına baxmayaraq, şəhərlərdə aparılan daxili ticarətdə qeyri-adi hallara da təsadüf etmək olurdu. Bəzən iflasa uğrayan tacir eyni əmlakı bir neçə varlının yanında girov qoyurdu. Bəzən isə müqavilələr əsasında ağır öhdəliklərdən boyun qaçırmaq istəyən tacir pul və sərvətlərini gizlədərək iflasa uğradığını elan edirdi. Belə tacirlər müəyyən müddət «bəst»lərdə, yaxud ayrı-ayrı yerlərdə günlərini keçirib, müqavilənaməni etibardan saldıqdan sonra, yenə də yavaş-yavaş öz sərmayələrini işə salırdılar (4, 70). Bir qrup tacirlərin əl atdığı belə fırıldaqçılıq bazarda ticarətin normal gedişini pozur və ona böyük zərər vururdu. Eyni zamanda belə hallarının qarşısınını alınmasına yönəlik müvafiq hüquqi nizamlanma tədbirlərinin həyata keçirilməsi zərurəti ortaya çıxırdı.

Yuxarıda qeyd olunanlardan da göründyü kimi, ayrı-ayrı hökmdarlar əmlak, öhdəlik və ticarət munasibətlərinin hüquqi nizamlanması istiqamətində müəyyən addımlar atsalar da, ortaya çıxan problemlərin həllinə tam nail oluna bilinməmişdi ki, bu da dövrün mütəmadi olaraq təkrarlanan gərgin ictimai-siyasi durumu ilə bağlı idi.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. 7 cilddə. III c. Bakı: Elm, 1999, 584 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar.İkinci nəşrin tərtibatçısı və redaktoru prof. S. Əliyarlı. Bakı:, 2007, 328 c.
3. Антология памятников права народов Кавказа. т.17, Памятники права Азербайджана. Ч.I. (составители М.Ф.Меликова, Х.Дж.Исмайлов, Е.Р.Гулиев, З.Н.Азимов). РФ, Ростов-на-Дону: «Альтаир, 2014, 534 с.
4. Березин И.Н. Путешествие по Северной Персии. Казань: Тип. Губернского правления, 1852, 445 с.
5. Əliyev F.M. XVIII əsrin birinci yarsında Azərbaycanda ticarət. Bakı: Elm, 1964, 268 s.
6. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı: Elm, 1979, 144 s.
7. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı: Şərq-Qərb, 2010, 582 s.
8. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. Bakı: Elm və təhsil, 2015, 572 s.
9. İsmayılov X.C. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
10. İsmayılov X.C. XVIII əsrin birinci yarısında Azərbaycanda hüquq mənbələrinin müxtəsər icmalı // Hüquqi dövlət və qanun. 2005, № 2, s.16-19.
11. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: 1981.
12. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər XVI-XVIII əsrlər). Bakı: 1977, 120 s.
13. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.
14. Səfərname-ye-Sanson. Vəz'e keşvəre şahənşahi-ye İran dər zamane şah Süleyman Səfəvi. Tağı Təfəzzülinin tərcüməsində. Tehran: 1967, 644 s.

15. Tavernye Jan Batist. Səfərname-ye Tavernye. I-IV cildlər. Paris: 1676. Əbu Turab Nurinin tərcüməsində. İsfahan: 1957.
16. "Тазкират ал-мулюк". Кембридж: 1943, 446 с.

## ПРАВО СОБСТВЕННОСТИ И ТОРГОВЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В XVII – НАЧАЛЕ XVIII ВВ.

**Х.Дж.ИСМАЙЛОВ**

### РЕЗЮМЕ

События, происходившие в Азербайджане в конце владычества Сефевидской державы, привели к ухудшению социально-экономического положения государства, откатывая назад развитие отношений в сфере собственности и торговли. Вместе с тем, в период властвования отдельных правителей данного государства, во времена владычества Российских и Османских империй в подвластных им азербайджанских территориях, а также в период Афшаридов издавались некоторые правовые документы с целью регулирования этих отношений и устанавливались новые правила, содержащие вопросы земельной собственности, торговли и налогов. В статье исследуются вопросы, связанные с правовым регулированием имущественных и торговых отношений в Азербайджане в XVII – начале XVIII вв., выявляются новые правовые факты в указанных сферах и осуществляется соответствующие обобщения.

**Ключевые слова:** право собственности, договор, фирман (указ), пошлина, земельная собственность, налоговые реестры, монетный двор, организации ремесленников, правила торговли

## PROPERTY LAW AND TRADE RELATIONS IN AZERBAIJAN IN XVII – EARLY IN XVIII CENTURIES

**Kh.J.ISMAYILOV**

### SUMMARY

The events occurring in Azerbaijan at the end of the sovereignty of Sefevi's power, have led to deterioration of economic and social situation in the state, rolling away back the development of relations in property and trade spheres. At the same time, during the reign of different governors of the given state, at the time of sovereignty of the Russian and Ottoman empires in Azerbaijan territories and during the period of Afshari's, some legal documents were published for the purpose of adjustment of these relations and new rules on land property, trade and taxes were established. The author has researched the questions connected with the legal regulation of property and trade relations in Azerbaijan in XVII – early in XVIII centuries, highlighted the new legal facts in the specified spheres and performed corresponding generalization.

**Key words:** property law, agreement, decree, land property, tax registers, mint, organizations of handicraftsmen, trade rules